# YİF haqqında yığcam məlumat:
## SADƏLƏŞDİRİLMİŞ TƏSDİQ PROSESİ



Yaşıl İqlim Fondu (YİF) geniş və proqressiv layihə portfoliosu yaratmaq üçün sürətlə fəaliyyət göstərir, bir çox layihələr iqlim dəyişikliyini adaptasiya etmək və/və ya azaltmaq məqsədilə artıq icra olunmaqdadır.

Halbuki, xüsusilə birbaşa giriş imkanı olan qurumlardan müəyyən kiçikmiqyaslı layihələrin qəbulunu sadələşdirməyə və səmərəşləndirməyə ehtiyac vardır. Buna cavab olaraq, Yaşıl İqlim Fondu Heyəti yeni yanaşma qəbul etmişdir: hal-hazırda fəaliyyət göstərən Sadələşdirilmiş Təsdiq Prosesi Pilot Layihəsi (STP).

Heyət birinci STP layihəsini 2018-ci ilin fevral ayında qəbul etdi – Ətraf Mühit İnvestisiya Fondu, Namibiyanın birbaşa giriş imkanı olan qurumu tərəfindən fermerlərin ekosistemin idarəolunması praktikalarını yaxşılaşdırmaq üçün təşəbbüs.

## Sadələşdirilmiş Təsdiq Prosesi nədir?

2017-ci ilin oktyabr ayında 18-ci Heyət iclasında qəbul edilməklə STP müəyyən fəaliyyətlərin, xüsusilə kiçikmiqyaslı fəaliyyətlərin məqsədləri üçün hazırlıq, baxış, təsdiq və ödəniş prosedurlarında tələb olunan vaxt və təşəbbüsü azaltmaq niyyəti daşıyır.

Sadələşdirmələr iki hissədən ibarətdir:

1. Müraciət prosesi daha sadədir, daha az səhifə və daha asan qaydada formanın doldurulması tələb olunur. Konsepsiya Sənədləri və tam Maliyyə Təklifləri üçün nəzərdə tutulan şablonlar mövcuddur; və
2. Baxış və təsdiq prosesləri optimallaşdırılmışdır.

Bu iki sadələşdirmə prosesi layihə konsepsiyasından onun icrasına keçmək üçün tələb olunan vaxt və təşəbbüsü azaltmaq ilə nəticələnməlidir. STP hal-hazırda Pilot dövründə olduğundan sadələşdirmədə əlavə təkmilləşdirmələr zamanla əlavə olunacaq.

## Uyğunluq meyarları nədən ibarətdir?

Layihələr və ya proqramlar STP üçün bir şərtlə uyğun hesab edilir ki, onlar üç əsas uyğunluq meyarına cavab versin:

1. Miqyası böyütməyə və transformasiya üçün potensiala malik olmaq, aşağı emissiyalı və iqlim dəyişikliyinə davamlı inkişafa paradiqmalı keçidi təşviq etmək üçün hazır vəziyyət;
2. Ümumi layihə büdcəsindən 10 milyon ABŞ dolları məbləğinə kimi maliyyələşdirmə ilə bağlı Yaşıl İqlim Fonduna müraciət; və
3. Ətraf mühit və sosial risklər və təsirlər minimaldan sıfıra kimi olan diapazonda təsnif olunur.

STP bir çox fəaliyyətləri dəstəkləyə bilər. Aşağıda bir neçə nümunə təsvir olunmuşdur:

- Erkən xəbərdarlıq və digər monitorinq sistemləri
- Təsərrüfat səviyyəsində qurğular, misal olaraq, yağış suyunun yığımı və kiçikmiqyaslı bərpa olunan enerji
- Kiçikmiqyaslı kənd və şəhər icması əsaslı layihələr, misal olaraq, kənddə su təchizatı və drenaj və iqlim dəyişikliyinə davamlı kənd təsərrüfatı.

GREEN CLIMATE FUND

Müvafiq qurumlar tərəfindən təşəbbüs və konsultasiyalar səbəbi ilə əlavə və daha ətraflı məlumat tələb edə biləcək, məlum risk faktorlarından ibarət layihələr və ya proqramlar uyğun hesab edilmir. Xas olan risk faktorlarından ibarət fəaliyyətlərə insanların yaşayış yerlərinin dəyişdirilməsi və ya yerli əhaliyə təsir göstərən, eləcə də qorunan ərazilər və mədəni irs yerlərində baş verən və ya tullantı əmələ gətirən, insanların sağlamlığına təsir göstərən və ya transsərhəd təsirləri əhatə edən faktorlar nümunə ola bilər.

Zamanla Birbaşa Giriş İmkanı olan Qurumların layihələri STP portfoliosunun ən azı 50 faizini təşkil etməlidir.

## Bu necə fəaliyyət göstərir?

Uyğunluq meyarlarına cavab verən layihələr və ya proqramlar üçün təkliflər Akkreditasiyadan Keçmiş Təşkilatlar (AKT-lar) tərəfindən Birbaşa Giriş İmkanı olan Qurumların iştirakının vurğulanması ilə təqdim oluna bilər. Konsepsiya sənədləri həmçinin Milli Səlahiyyətli Orqanlar (MSO-lar) və Əsas Məntəqələr tərəfindən təqdim oluna bilər.

Təklifin təsdiqi prosesi aşağıda qeyd olunan qaydadır:

**Təklifin təqdimi**

- AKT-lar və MSO-lar STP Onlayn Təqdimat Sistemindən (OTS) istifadə edərək Konsepsiya Sənədlərini təqdim edirlər. Bu, məcburi mərhələdir.
- Yaşıl İqlim Fondu Katibliyi risk kateqoriyasını yoxlayır və AKT və/və ya MSO-na STP-nə əsasən layihənin uyğunluğu haqqında məlumat verir.
- AKT xüsusi STP Maliyyə Təklifi şablonundan istifadə edərək Maliyyə Təklifi hazırlayır və STP OTS-dən istifadə edərək təklifi təqdim edir.
- Yaşıl İqlim Fondu qurum tərəfindən tələb olarsa və MSO ilə razılığa əsasən təklifin yekunlaşdırılması istiqamətində texniki yardım göstərə bilər.

**Təklifin nəzərdən keçirilməsi**

- Yaşıl İqlim Fondu Katibliyi Maliyyə Təklifi və Əlavələri nəzərdən keçirir, Müstəqil Texniki Məsləhət Paneli (*iTAP*) də bunu davamlı əsasda icra edir.
- Maliyyə Təklifinə daxil edilmiş fəaliyyətlər STP-nə əsasən uyğunluqlarını müəyyənləşdirmək məqsədilə hər biri ayrılıqda dəyərləndiriləcək.

**Heyət tərəfindən təsdiq**

- Heyət hal-hazırda müntəzəm keçirilən iclaslarında Maliyyə Təkliflərini təsdiq üçün nəzərdən keçirir.

**Təsdiqdən sonra**

- Katiblik müvafiq olaraq, təsdiqdən sonrakı prosesi sürətləndirir.

**İcra**

- İcra zamanı etibarlı monitorinq təmin etməlidir ki, Yaşıl İqlim Fondu prosedurları ilə uyğunluq və təhlükəsizlik tədbirləri gözlənilir.

## Növbəti mərhələlər hansıdır?

Konsepsiya Sənədləri və Maliyyə Təklifləri AKT/MSO Yaşıl İqlim Fondu portalında mövcud STP onlayn təqdim sistemi (OTS) vasitəsilə təqdim edilə bilər. Zəhmət olmasa, hər hansı texniki çətinlik ilə qarşılaşsanız, saposs@gcfund.org elektron ünvanda bizim xüsusi müştəri yardım xidmətimiz ilə əlaqə saxlayasınız.

STP Maliyyə Təklifinə dair Rəhbər Qaydalar və Sektoral Texniki Rəhbər Qaydalar STP üçün təkliflərin hazırlanmasında Akkreditasiyadan Keçmiş Təşkilatlar, xüsusilə birbaşa giriş imkanı olan qurumlar və MSO-larını dəstəkləmək üçün Yaşıl İqlim Fondunun veb ünvanında mövcuddur. Potensialın artırılmasına dair vebinarlara da Yaşıl İqlim Fondunun veb-saytında rast gəlinə bilər.

Bütün digər maraqlı tərəflər STP üçün təklifləri təqdim etmək məqsədilə AKT-lar və ya MSO-lar ilə tərəfdaşlıq etməyə təşviq olunur.

*STP-nə dair əlavə məlumat, eləcə də STP Konsepsiya Sənədinin şablonu Yaşıl İqlim Fondunun veb-saytında mövcuddur.*

**Əlaqə**

**YİF Mitiqasiya və Adaptasiya Departamenti** E: sap@gcfund.org | W: www.greenclimate.fund/sap

GREEN CLIMATE FUND